*XX əsrin ikinci yarısı Azərbaycan üçün mühüm dövr oldu. Bu dövrdə yeni neft və qaz yataqlarının aşkarlanması həm iqtisadi inkişafın, həm də siyasi nüfuzun əsas göstəricilərindən birinə çevrilmişdi. Məhz belə bir tarixi kontekstdə Azərbaycan elminə nailiyyətləri ilə şərəf gətirən, adını dünya geologiya tarixinə qızıl hərflərlə yazdıran görkəmli şəxslərdən biri də Fərman Salmanov olub. O, 1928-ci il iyulun 28-də Şəmkir rayonunun Morul kəndində dünyaya göz açıb. Azərbaycanın elm və sənaye ənənələrinin inkişaf etdiyi bir dövrdə 1954-cü ildə Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) geoloji kəşfiyyat fakültəsini mədən mühəndisi-geoloq ixtisası üzrə bitirən F.Salmanov ömrünü yerin dərin qatlarında gizlənən sərvətlərin axtarışına həsr etdi.*

# Neft tarixində iz qoyan azərbaycanlı alim



Əmək fəaliyyətinə çox gənc yaşlarında geoloji ekspedisiyanın sıravi işçisi kimi başlayan Fərman Salmanovun ilk illəri ona geologiyanın sərt əmək ritmini, çətin təbiət şəraitini və kollektiv məsuliyyətini dərindən mənimsətdi. Bu təməl onu 1954-1959-cu illərdə Novosibirsk Geologiya İdarəsində geoloq, böyük geoloq və nəhayət, neft kəşfiyyatı ekspedisiyasının rəisi pillələrinə qədər yüksəltdi. 1959-cu ildə isə F.Salmanov Tümen Ərazi Geologiya İdarəsinin Surqut neft kəşfiyyatı ekspedisiyasının rəisi təyin edildi. Bu vəzifə Sibir neftinin taleyində həlledici rol oynayan missiyaya çevrildi. Onun rəhbərliyi ilə bu ərazilərdə aparılan kəşfiyyat işləri nəticəsində nəhəng ehtiyatlar üzə çıxarıldı. Daha sonra, 1962-1964-cü illərdə Ust-Balık ekspedisiyasının baş geoloqu, 1964-1970-ci illərdə isə Pravdinsk neft kəşfiyyatı ekspedisiyasının rəhbəri kimi fəaliyyət göstərən F.Salmanov bu dövrdə artıq özünü yüksək səviyyəli təşkilatçı və strateji düşüncə sahibi kimi təsdiq etmişdi. Onun təşəbbüsləri və elmi əsaslara söykənən yanaşması Tümen vilayətində və ətraf regionlarda geoloji axtarışların keyfiyyətini yeni mərhələyə qaldırdı.

1970-1987-ci illərdə isə Fərman Salmanov Tümen Baş Geologiya İdarəsinin rəis müavini, ardınca isə rəisi vəzifələrini icra etdi. Bu mərhələdə o, regional enerji strategiyasının formalaşmasında mühüm söz sahibi, dövlət əhəmiyyətli qərarların elmi əsaslarını hazırlayan şəxs idi. Elmi potensialla istehsalat təcrübəsini bir araya gətirə bilən nadir mütəxəssislərdən olan F.Salmanov geologiyanın dövlət siyasətinin əsas hissəsinə çevrilməsinə nail oldu.

O, 1987-1991-ci illərdə SSRİ geologiya nazirinin müavini vəzifəsinə təyin olunmaqla geoloji idarəetmənin ən yüksək pilləsinə yüksəldi. Bu təyinat bir tərəfdən onun texniki və elmi bacarıqlarına olan yüksək etimadın göstəricisi idisə, digər tərəfdən neft siyasətində söz sahibi bir şəxsiyyətə çevrildiyini nümayiş etdirirdi. F.Salmanov bu dövrdə geoloji siyasətin formalaşmasında və SSRİ miqyasında enerji strategiyalarının qurulmasında mühüm rol oynadı. Onun rəhbərliyi ilə yüzdən artıq iri karbohidrogen yatağının istismara verilməsi keçmiş Sovetlər İttifaqının enerji siyasətində dönüş nöqtəsi yaratdı. Məhz həmin yataqların sistemli şəkildə işlənməsi nəticəsində SSRİ dünyanın əsas neft və qaz ixracatçılarına çevrildi.

90-cı illər Rusiya üçün iqtisadi çətinliklər, siyasi qeyri-sabitlik və struktur dəyişiklikləri dövrü idi. Belə mürəkkəb mərhələdə F.Salmanov öz fəaliyyətini dayandırmadı, yeni iqtisadi reallıqlara uyğun şəkildə neft sənayesində təşkilatçılıq və rəhbərlik missiyasını davam etdirdi. 1992-ci ildən etibarən "Rospan International" Qapalı Səhmdar Cəmiyyətinin prezidenti kimi fəaliyyət göstərərək Rusiyanın yeni enerji iqtisadiyyatının formalaşmasına töhfələr verdi. Daha sonra 2002-ci ildən "İtera" şirkətində Direktorlar Şurası sədrinin müşaviri, eyni zamanda "Yuqneftqaz" Cəmiyyətində Direktorlar Şurasının sədri kimi fəaliyyətini davam etdirərək postsovet məkanında neft və qaz sənayesinin bazar münasibətlərinə uyğun şəkildə inkişafında yaxından iştirak etdi. F.Salmanovun fərqləndirici cəhətlərindən biri də onun israrla və prinsipial şəkildə elmi biliyə əsaslanan qərarlar verməsi idi. O, yalnız neft yataqlarının texniki axtarışı ilə kifayətlənmirdi, həm də onların iqtisadi səmərəliliyi, ekoloji və dövlət maraqlarına uyğunluğu baxımından dəyərləndirilməsinə çalışırdı. Elə buna görə də, Qərbi Sibirdə, əvvəllər heç bir enerji ehtiyatının olmadığı iddia edilən ərazilərdə ilk neft yataqlarının kəşf edilməsi onun həm elmi intuisiyasının, həm də inadcıl axtarışlarının real bəhrəsi idi.





Fərman Salmanov, eyni zamanda fəal ictimai xadim idi. O, müxtəlif illərdə həm Azərbaycan SSR, həm də Rusiya Federasiyasının ali qanunverici orqanlarında deputat kimi təmsil olunaraq elmi təcrübəsini siyasi qərarların formalaşdırılmasında da tətbiq etmişdir. Onun siyasi fəaliyyəti heç zaman elmi missiyasından ayrılmadı, əksinə, bir-birini tamamladı. Ən diqqətəlayiq məqamlardan biri də odur ki, Salmanov Rusiya cəmiyyətində azərbaycanlıların mədəni, ictimai və iqtisadi mövqelərinin gücləndirilməsi istiqamətində xüsusi rol oynayıb. O, Rusiyada Azərbaycan diasporunun təşəkkül tapmasında, təşkilatlanmasında və dövlətlə münasibətlərdə sabit platformanın yaradılmasında əvəzsiz xidmətlər göstərmişdir. Alimin həmvətənlərinə göstərdiyi mənəvi və təşkilati dəstək, onu diasporanın ağsaqqalı və yolgöstərəni kimi tanıtdırıb.

Əldə etdiyi uğurları elmi müstəvidə də möhkəmləndirən alim doktorluq dissertasiyasını müdafiə edərək geologiya-mineralogiya elmləri doktoru elmi dərəcəsinə layiq görüldü. Bu, onun təcrübəsinin elmi icma tərəfindən rəsmi tanınması idi. Rusiya Elmlər Akademiyasının müxbir üzvü seçilməsi onun elmi fəaliyyətinin ali zirvəyə çatdığını göstərdi. Fərman Salmanovun metodoloji yanaşmaları, təklif etdiyi texniki və texnoloji həllər bu gün də bir çox gənc mütəxəssis üçün dərs vəsaiti funksiyasını daşıyır. O, eyni zamanda yüzlərlə ixtisaslı neftçi-geoloqun yetişməsində bilavasitə iştirak etmiş, gənclərə öz məktəbini miras qoymuşdur.

Bu gün Fərman Salmanovun adını daşıyan Surqut Beynəlxalq Hava Limanı azərbaycanlı alimin Rusiyanın enerji strategiyasına verdiyi töhfənin rəmzidir. Bu fakt həm də bir daha sübut edir ki, F.Salmanovun irsi milli sərhədləri aşaraq ümumbəşəri dəyərə çevrilmişdir.

Qeyd olunmalıdır ki, alimin 30 ildən artıq bir dövrü əhatə edən fəaliyyəti əsasən Rusiya Federasiyasının Qərbi Sibir regionu, xüsusilə Xantı-Mansiysk Muxtar Dairəsi və Tümen vilayəti ilə bağlı olub. Bu ərazilərdə onun rəhbərliyi və bilavasitə iştirakı ilə 130-dan çox neft və qaz yatağı kəşf olundu. F.Salmanovun ən mühüm nailiyyətlərindən biri də ondan ibarətdir ki, o, Sibir kimi çətin iqlim və relyef şəraitində elmi intuisiyası və əzmkarlığı ilə neftin varlığını sübuta yetirdi. Onun elmi əsaslarla irəli sürdüyü ideyalar bir çox hallarda mövcud sovet geoloji dairələrinin şübhə və müqaviməti ilə qarşılaşsa da, zaman onun haqlı olduğunu təsdiqlədi. Fərman Salmanov Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdü. Onun fəaliyyəti Azərbaycan elminin beynəlxalq nüfuzuna əhəmiyyətli töhfə vermişdir. Alim, eyni zamanda elmi-texniki yaradıcılığına görə nüfuzlu Lenin, Qubkin adına mükafat, Qırmızı Əmək Bayrağı ordeni ilə təltif olunmuşdu. O, "Rusiya Federasiyasının Əməkdar Geoloqu" və ölkənin neft-qaz sənayesinin "Fəxri işçisi" fəxri adlarına da layiq görülmüşdü. F.Salmanovun xidmətləri ABŞ-da da yüksək qiymətləndirilmiş, xüsusilə neft sənayesinin inkişafındakı uğurlarına görə ABŞ-ın Texas ştatının fəxri vətəndaşı seçilib.

F.Salmanov müstəqil Azərbaycanın ali mükafatlarından biri olan "Şöhrət" ordeninə layiq görülmüşdür. Bu təltif həm də Azərbaycanın elmi irsinin dünya miqyasında təbliğindəki roluna verilmiş mənəvi və siyasi qiymətdir. 2007-ci il martın 31-də, ömrünün 79-cu səhifəsində dünyaya gözlərini yuman alimin elmi və mənəvi irsi bu gün də yaşayır. Məhz bu irsi yaşatmaq məqsədilə Azərbaycan dövləti Fərman Salmanovun xatirəsinin əbədiləşdirilməsinə xüsusi diqqət ayırmışdır. Prezident İlham Əliyevin 9 iyul 2019-cu il tarixli "Fərman Salmanovun xatirəsinin əbədiləşdirilməsi haqqında" Sərəncamı həm dövlət səviyyəsində minnətdarlığın ifadəsi idi. Sərəncama əsasən, Azərbaycan Dövlət Neft və Sənaye Universitetində istedadlı tələbələr üçün "Fərman Salmanov adına təqaüd" təsis olunmuşdur. Bu təşəbbüs, onun adını daşıyan təqaüdçülərə mənəvi məsuliyyət və elmi irsə bağlılıq hissi aşılamaqdadır.

2022-ci il oktyabrın 21-də isə Milli Azərbaycan Tarixi Muzeyinin və Xantı-Mansiysk Muxtar Dairəsi - Yuqranın büdcə təşkilatı Geologiya, Neft və Qaz Muzeyinin (Rusiya Federasiyası) birgə layihəsi çərçivəsində geologiya-mineralogiya elmləri doktoruna həsr olunan "Azərbaycanlı Prometey - Fərman Salmanov. Sibir neftinin kəşfi" adlı fotosərgi açılmışdır. Sərgi azərbaycanlı alimin dünya miqyasında tanınmış elmi fəaliyyətinin gələcək nəsillərə təqdim olunması baxımından olduqca əlamətdar idi. Burada nümayiş etdirilən 55 unikal foto Fərman Salmanovun həyat yolunu, elmi yüksəlişini, Sibirin sərt torpaqlarında aparılan çətin kəşfiyyat ekspedisiyalarını, onun rəhbərliyi ilə aşkarlanmış neft yataqlarının necə iqtisadi canlanmaya səbəb olduğunu əks etdirirdi. Fərman Salmanovun dünya neft geologiyası tarixindəki yeri barədə dolğun təsəvvür yaradan sərgi bir çox yerli və xarici insanların marağına səbəb olmuşdur.

**Nəzrin ELDARQIZI,**
**"Respublika".**